**Aprelin 18-də "QGallery" Qalereyasında Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə Qərbi Azərbaycan həqiqətlərinin təbliği, xarici ölkə rəssamlarının yaradıcılığına Qərbi Azərbaycan mövzusunun gətirilməsi, İcmanın Türkiyənin sənət aləmində tanınmış şəxslərlə əlaqələrinin qurulması məqsədilə Türkiyənin tanınmış rəssamı Ayfer Akbaşoğlunun əsərlərindən ibarət "İnsan hekayələri" adlı rəsm sərgisi təşkil olunub.**




# Qərbi Azərbaycanın "İnsan hekayələri" Ayfer Akbaşoğlunun rəsm əsərlərində



Ayfer Akbaşoğlu öz yaradıcılığında Qərbi Azərbaycan mövzusuna yer ayırmış, Qərbi Azərbaycanın tarixini, təbiət mənzərələrini, indiki Ermənistandan azərbaycanlıların zorla çıxarılması və onların qayıdış hüquqlarının tanınmasının əhəmiyyətini əks etdirən sənət əsərlərinin yaradılmasını və bu mövzuya ictimai diqqətin artırılmasını hədəfləyən sərgi üzərində çalışmalarını artıq başa çatdırmışdır.



Sərginin kuratoru sənətşünaslıq üzrə fəlsəfə doktoru Qalib Qasımovdur.

Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli bildirib ki, hazırkı sərgi Qərbi azərbaycanlıların problemlərini gündəmə gətirmək məqsədilə təşkil olunan sayca ikinci tədbirdir. Bu cür təşəbbüs əzəli torpaqlara qayıdış ideyasının gündəmə gətirilməsi nöqteyi-nəzərindən çox vacibdir. Sərgi başqa ölkələrdə yaşayan sənətkarların, incəsənət xadimlərinin öz fəaliyyətində məhz Qərbi Azərbaycan mövzusunun salınması və geniş təbliği məqsədi daşıyır. Türkiyəli rəssam Ayfer Akbaşoğlunun Bakıya dəvəti və bu mövzuda sərginin təşkili ideyası sənətşünaslıq üzrə fəlsəfə doktoru Ədalət Vəliyevə məxsusdur. Rəssam əsərlərində müxtəlif illərdə Qərbi Azərbaycan torpaqlarından zorla çıxarılan insan talelərinin əks olunmasına həsr edib. Burada əsas ideya müxtəlif ölkələrdə yaşamaq məcburiyyətində qalan insanların yeganə amalının öz yurdlarına qayıtmasıdır. Bu ideya uğrunda hazırda böyük işlər həyata keçirilir, tarixi ədalətin bərpası üçün tədbirlər görülür.

Rəssam Ayfer Akbaşoğlu deyib:

"Bütün zülm görmüş xalqların timsalında Qərbi azərbaycanlıların və ümumilikdə Qarabağ əhalisinin öz yurdlarından, əzəli torpaqlarından qovulması, işgəncələrə məruz qalması məni bir sənətçi olaraq məyus etdi. Bakıda bu mövzuda sərgi təşkil etmək təklifi alarkən çox düşündüm. Qarabağ müharibəsini araşdırdım, bu prosesi yaxından izləyən və şahidi olan insanların gözü ilə problemə baxmağa çalışdım. Deyəsən, buna müvəffəq oldum. Mən insan duyğularını kətana köçürərək dərin hisslərə qapılıram. Hazırda insanlarda sanki soyuqqanlılıq, empatiya duyğusunu ifadə etmək çox az müşahidə olunur. Əsərlərimdə Azərbaycan cəmiyyətinin, Qarabağ əhalisinin iztirab və acılarını ötürməyə çalışdım. Ümid edirəm, bundan sonra xalqımız daha gözəl günlər yaşayacaq".

Ayfer Akbaşoğlu 1970-ci ildə İstanbulda anadan olub. İlk təhsilini Kadıköydəki Qızlar Liseyində alıb. 2005-ci ildə Metin Bobaroğlunun tövsiyəsinə əsasən rəsm sənəti ilə məşğul olmağa başlayıb. Rəssamlıq sənətini Aysu Koçak, Kasım Koçak, Erol Denec, Vural Yıldırımdan öyrənib, 2009-cu ildən öz emalatxanasını qurub. Daha çox akril və yağlı boya texnikasında işləyir. Onun fikrincə, bir rəssam üçün xəyal qurmaq və bu xəyalları sənət dünyasına yansıtmaq əsl sevincdir. Görünənlərin arxasındakı gizlinləri görmək, insanın fiziki sərhədlərinin arxasındakı ruhi varlığını kəşf etmək onun yaradıcılıq konseptinin əsasını təşkil edir.

Sərgi aprelin 24-dək davam edəcək.

**Aygün İBRAHİMOVA,**
**"Respublika".**

Respublika.- 2025.- 19 aprel (№ 77).- S.14.